Kaspi 2019.- 23-25 fevral.- S.23.

## MÜBARİZİN SƏSİ

Əsgər anaları yuxular görər
Hərdən yuxuları dönüb çin olar
Analar sülh istər, azadlıq istər
Uçub ağ qanadlı göyərçin olar.

Bir yuxunun ömrü göyərçin ömrü
Bütün yer üzünü gəzib dolaşar
Analar yuxunu yozmaqdan ötrü
Səhər-səhər axar suya danışar.

Şamama ananın qaçmış yuxusu
Axşamdan bir damcı çimir almışdı.
Bu gecə havada barıt qoxusu
Ay Allah, röyası nədən qarışdı.

Mübariz uçurdu ağ at belində
Ağ atın mənzili bilməm haradır.
Deyəsən, silah da tutub əlində
Bəs atın yalmanı niyə qaradır?

Cəbhədə güllələr oyandan gəldi
Yenə də düşmənlər yolunu azdı
Mübariz xəlvət bir yerə çəkildi
Anaya sonuncu məktubu yazdı.

Ana, bu vətən torpaqdan əziz
Söylə nəyim var ki, bu gen dünyada
Qoymaram hiyləgər, alçaq, şərəfsiz
Yurdumda at çapa, qılınc oynada.

Lazımsa bu yolda mən şəhid gedim
Qarşıda mina var, düşmən səddi var
Nə qədər gözləyim, dözüm, səbr edim
Səbrin də tükənib aşan həddi var.

Mən vətən uğrunda versəm də canı
Gərək düşmənlər də kamın almasın
Əlifin, Vəzirin, Yusifin qanı
İsgəndərin heyfi yerdə qalmasın.

* * *

Növbətçi əsgər gəlir
- Nə yazırsan, komandir?
- Göydəki allah bilir
Elə dastan kimidir.

Bir əsərdir hər ömür
Nədir sonu yazıram
Ürəyim nələr deyir
Ancaq onu yazıram.

Yazıram bir nəfəsə
Oxuyarsan, duyarsan
Əgər xoşuna gəlsə
Başlığı sən qoyarsan.

Bir dastan yazıram ki,
Səhərəcən bitəcək
Bir dastan yazıram ki,
"Koroğlu" dastanıtək.

Mübariz yola çıxdı
Qarşıda yol çox idi
Dönüb saata baxdı
Daha vaxtı yox idi.

Qərar qətiydi, qəti
Bayrağına and içdi
Minalanmış sərhəddi
Bilmədi necə keçdi.

Özünə arxayındı
Ölçüb, biçib yüz kərə
Gecənin qaranlığı
Daxil oldu səngərə

Qəhrəman tələsmədən
Dərindən nəfəs dərdi
Birinci keşik çəkən
Əsgəri yerə sərdi.

Tüfəngin qundağıyla
İkincini haqladı
Sanki çoxdan ölübmüş
Heç səsi də çıxmadı.

Qaranlıq, gecə yarı
Bir qədər də dinlədi



Keşikdə duranları
Bircə-bircə dənlədi.

Hələlik sükut idi
Duydu hərdən meh əsir
Qəhrəman sakit idi
Ancaq zaman tələsir.

Artıq görür Mübariz
Yataqxana hardadır
İndi düşmənlər şəksiz
Ağır yuxulardadır.

Birdən açılır qapı
Sanki qızıl quş gəlir
Sərsəm oyanan hamı
Güllələrə tuş gəlir.

Hər tərəf qandı, leşdi
Qırıb yan-yana düzdü
Ölənlər birdi-beşdi,
Ya əllidi, ya yüzdü.

Gözləməyib səhəri
Yola çıxdı nə çıxdı
Daha baxmadı geri
Yol da ki, çox uzaqdı.

Kimsə salamat qaçıb
Xəbər verib hər yerə
Türklər hücuma keçib
Oyanıbdı dağ-dərə.

Tanklar, toplar, mərmilər
Duman nəydi, tüstü nə,
Batalyonlar gəlirlər
Bir igidin üstünə.

Hər yanı qoşun aldı
Yağdı düşmən gülləsi
Sərhəd boyu səs saldı
"Vətən sağ olsun" səsi.

Bu səs cahanı gəzdi
Dərə keçdi, dağ aşdı
Bütün dünyanı gəzdi
Eldən-elə dolaşdı.

Ey igid, ölmədin ki,
Diləklərdə yaşadın
Ürəyin sönmədi ki,
Ürəklərdə yaşadın.

Anan görən yuxunu
Belə yozdun, Mübariz
Özün öz dastanını,
Belə yazdın Mübariz.

## ŞAMAMA ANANIN SƏSİ

Ellər duydu səsini
Sən and içdin Mübariz
Şəhidlik zirvəsini
Necə keçdin Mübariz

Anan məndim, ya vətən
Od çıxdı kürəyimdən
Bilirsən, ürəyimdən
Necə keçdin Mübariz...

**Çingiz Dalğın**

23 fevral 2019

KASPI.AZ